# YALANLAR
# *bir daha* YALANLAR
# YALANLAR

## Türklərə qarşı erməni uydurmaları və iddiaları

*Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur*

**İstefada olan polkovnik-leytenant Məsud Əxtar Şeyx**

«TƏHSİL»
BAKI–2008

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Kitabın orijinal adı – Lies, lies, and more lies: Belying the Armenian claims the Turks

Pakistanın «Encore» nəşriyyatı tərəfindən 2007-ci ildə İslamabadda nəşr edilmişdir.

İngilis dilindən tərcümə edən **Babək Seyfəddin oğlu**

Tərcümənin redaktoru **Dr.Eynulla Mədətli**

M55 **Məsud Əxtar Şeyx.** Yalanlar, yalanlar, bir daha yalanlar. (Türklərə qarşı erməni uydurmaları və iddiaları). Bakı, «Təhsil», 2008, 252 səh.

M $\frac{0802000000}{053}$ 2008

© «Encore», 2007
© «Təhsil», 2008

Nəşriyyat redaktoru *Mustafa Çəmənli*
Bədii və texniki redaktoru *Abdulla Ələkbərov*
Kompyuter tərtibatı və dizayn *Römən Quliyev, Səadət Quluzadə*
Korrektorları *Sevinc Hacıyeva, Ülkər Şahmuradova*

Çapa imzalanmışdır 15.12.2008. Kağız formatı 70x100$^1/_{16}$.
Fiziki çap vərəqi 15,75. Sifariş 81.
Qiyməti müqavilə ilə

«Təhsil» Nəşriyyat-Poliqrafiya MMC
Bakı, AZ 1052, F.Xoyski küç. 121A

# MÜNDƏRİCAT

**Ön söz.** Erməni saxtakarlığı ifşa edilir . . . 5
**Redaktordan** . . . 7
**Müəllifdən.** Erməni məsələsi ilə bağlı niyə daha bir kitab? . . . 9

I FƏSİL. GİRİŞ
Erməni məsələsi . . . 13
Ermənilər və onların tarixi keçmişi . . . 20
Ermənilərin Osmanlı imperiyasında həyatı . . . 22
Türk-Rus-Erməni sərhədlərinin müəyyənləşdirilməsi . . . 26
Türkiyə Cümhuriyyətinin hədəfə alınması . . . 28

II FƏSİL. XARİCİ DÖVLƏTLƏRİN VƏ MİSSİONERLƏRİN ROLU
Rusiyanın rolu . . . 36
Tarixdə rus-erməni münasibətlərinin inkişafı . . . 36
Rusiyanın Birinci Dünya müharibəsində rolu . . . 42
Britaniyanın rolu . . . 44
Fransanın rolu . . . 45
Amerikanın rolu . . . 48
Kilsə və missionerlərin rolu . . . 52

III FƏSİL. ERMƏNİ TERROR TƏŞKİLATLARI
Onların hədəfləri . . . 55
Erməni terror təşkilatlarının mənşəyi . . . 57
Hınçaq komitəsi . . . 58
Daşnaksütyun komitəsi . . . 61
Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu . . . 64
Erməni terrorist qruplarının göbələk kimi çoxalması . . . 66

IV FƏSİL. ERMƏNİ MOTİVLƏRİ
Azadlıq və azad bir vətən . . . 67
Osmanlı imperiyasının süqutu . . . 69
Soyqırımı yalanının arxasındakı motivlər . . . 70
Torpaq və pul hərisliyi . . . 70
Milli birliyə nailolma . . . 72
Erməni iddiaları və onların genişləndirilməsi planları . . . 73
Türkiyənin şantaj edilməsi . . . 80
Türk qətliamlarının arxasındakı motivlər . . . 83

V FƏSİL. YALANLAR, YALANLAR, BİR DAHA YALANLAR
Erməni yalanlarının təbiəti . . . 87
Saxtalaşdırma prosesi və iddialar . . . 93
Erməni saxtakarlığının vurduğu ziyan . . . 102

VI FƏSİL. ERMƏNİ SOYQIRIMI — GERÇƏKLİK, YOXSA UYDURMA?
Erməni iddiası . . . 105
Təcridetmə məsələsinin tədqiq edilməsi . . . 107
Həqiqətənmi kütləvi köçürmə genosid planı idi? . . . 110
Köçürməyə vadar edən şərait . . . 113
Köçürmə haqqında qanunun tətbiqi . . . 115
Nə üçün bu qədər erməni qırıldı? . . . 118
Rəqəm oyunu . . . 120
Evakuasiyaya bəraət qazandırılırmı? . . . 123
Erməni üsyanlarına bəraət qazandırmaq olarmı? . . . 124
Hərbi məhkəmə tərəfindən mühakimə . . . 126

Xüsusi təşkilatın rolu (Təşkilati-məxsusə) . . . 127
Heç vaxt başlamamış Malta məhkəmələri . . . 129
Naim bəyin xatirələri . . . 132
Erməni soyqırımı ilə bağlı son söz . . . 134

VII FƏSİL. ERMƏNİ ÜSYANLARI
Birinci Dünya müharibəsindən öncə erməni üsyanları . . . 137
Ərzurum üsyanı (1890) . . . 139
Qumqapı iğtişaşı (1890) . . . 141
Merzifon, Kayseri, Yozqat hadisələri (1892-1893) . . . 142
Birinci Sasun üsyanı (1894) . . . 143
Babıali nümayişi (1895) . . . 144
Zeytun üsyanı (1895) . . . 145
Van üsyanı (1896) . . . 147
Osmanlı bankına basqın (1896) . . . 148
İkinci Sasun üsyanı (1904) . . . 149
Yıldızın bombalanması (iyul, 1905) . . . 150
Erməni üsyanlarının Birinci Dünya müharibəsi ilə bağlılığı . . . 150
Van qiyamı (1915) . . . 150
Silisiya (Çukurova) üsyanı (1915) . . . 151

VIII FƏSİL. ERMƏNİ, YOXSA TÜRK SOYQIRIMI?
Təbliğatla hörülmüş əfsanənin sökülməsi . . . 155
Türklərə qarşı erməni terrorunun mərhələləri . . . 157
Türklərə qarşı kütləvi qətllər və vəhşiliklər davam etməkdədir . . . 159
Türklərin kütləvi qətllərinin həyata keçirildiyi əsas yerlər . . . 165
Yaşılyayla . . . 165
Van qətliamı . . . 166
Qars qətliamları . . . 169
Bitlis və Muş qətliamları . . . 170
Silisiyada kütləvi qırğınlar . . . 173

IX FƏSİL. ERMƏNİ SƏRSƏMLİYİNİN YENİDƏN CANLANMASI
Fırtına öncəsi səssizlik . . . 177
Ermənilər tərəfindən türk diplomatlarının qətliamı . . . 178
Azərbaycana qarşı erməni təcavüzü — Dağlıq Qarabağ münaqişəsi . . . 181

X FƏSİL. ÇİRKİN TƏBLİĞAT KAMPANİYASI DAVAM ETMƏKDƏDİR
Ermənilərin yeni hiyləgərliyi . . . 189
Müasir texniki vasitələr və erməni təbliğatı . . . 194

XI FƏSİL. NÖVBƏTİ NƏDİR?
Barışığa ehtiyac . . . 197
Normallaşdırma yolunda maneələr . . . 199
Barışığa doğru addım . . . 204

"A" ƏLAVƏSİ
Erməni vəhşiliklərinin xronologiyası . . . 213
Birinci mərhələ . . . 213
İkinci mərhələ . . . 217
Ermənilərin Azərbaycanda törətdikləri terror hadisələrinin xronologiyası . . . 228

"B" ƏLAVƏSİ
Ermənilərin iştirak etdikləri silahlı münaqişələr . . . 233
Ədəbiyyat . . . 235
Türk dilində olan nəşrlər . . . 235
İngilis dilində olan nəşrlər . . . 245





# Erməni saxtakarlığı ifşa edilir

Qardaş Pakistanın tanınmış tarixçisi Məsud Əxtar Şeyxin **"Yalanlar, yalanlar, bir daha yalanlar"** kitabının Azərbaycan oxucusuna təqdim olunması təqdirəlayiq hadisədir. Doğma dilimizdə yenicə işıq üzü görən bu qiymətli əsəri alınə alan hər bir oxucumuza qətiyyətlə, həm də böyük məmnunluqla bildirmək istərdim ki, **"Yalanlar, yalanlar, bir daha yalanlar"** kitabı dünya miqyasında erməni saxtakarlarının iç üzünü açan ən qiymətli əsərlərdən biridir.

**"Yalanlar, yalanlar, bir daha yalanlar"** əsərinin bizim üçün ən böyük əhəmiyyəti, hər şeydən əvvəl, ondan ibarətdir ki, bu sanballı elmi araşdırma bütün beynəlxalq məclislərdə, hər yerdə, hər zaman bizimlə olan qardaş Pakistanda yazılmışdır. Azərbaycan—Ermənistan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olaraq Azərbaycanın yanında olduqlarını Pakistan rəsmiləri bütün səviyyələrdə dəfələrlə, həm də tam qətiyyətlə bəyan etmişlər. **"Yalanlar, yalanlar, bir daha yalanlar"** kitabı isə tanınmış Pakistan ziyalısının öz xalqına müraciətidir. Və bu müraciət də səbəbsiz deyil. Çünki "Böyük Ermənistan" təbliğatçıları, dünyanın hər yerində olduğu kimi, Pakistanda da "əzabkeş", "məzlum" qiyafəsinə girərək öz çirkin əməllərini həyata keçirir, Azərbaycan və Anadolu türklərinə qarşı böhtan kampaniyası aparırlar: guya Osmanlı dönəmində "türklər onlara qarşı soyqırımı həyata keçirmişlər", guya "onların vaxtı ilə dənizdən-dənizə geniş əraziləri əhatə edən dövlətləri olub", guya "az qala bütün Azərbaycan torpaqları, o cümlədən Dağlıq Qarabağ da tarixi erməni torpaqları olub" və s. və i.a. Tarixi həqiqəti bilməyən sadə pakistanlıların isə bu zəhərli təbliğata uymaqdan başqa əlacı qalmır. Məhz buna görə tarixi həqiqəti, erməni təbliğatının yalan olduğunu beş barmağı kimi bilən görkəmli ziyalı Məsud Əxtar Şeyx öz xalqına vicdanının və həqiqətin gur səsi ilə müraciət edir, soydaşlarını ermənilərin yalançı göz yaşlarına inanmamağa çağırır. Qardaş ölkənin tarixçisi bu qiymətli əsəri qələmə almasının səbəbini izah edərək narahatçılıqla yazır: **"Pakistan mətbuatı öz oxucuları üçün qərb mətbuatında nəşr edilmiş və ya sadəcə türklərə və Türkiyə Cümhuriyyətinə böhtan atmaq üçün erməni mənbələri tərəfindən yayılmış qərəzli məqalələri heç nə olmamış kimi dərc edir. Sadəlövh pakistanlı oxucular isə bu məqalələrdə yazılanları şəksiz həqiqət kimi qəbul edir, ona inandıqları üçün beləcə hiyləgər erməni təbliğatına dua edirlər"**.

Məsud Əxtar Şeyx həm öz xalqını duyuq salmaq, həm də bir ziyalı kimi vicdan borcunu yerinə yetirmək üçün "erməni məsələsi" ilə bağlı çoxsaylı ilk mənbələri, həmçinin müxtəlif ölkələrdə nəşr olunmuş elmi ədəbiyyatı ələk-vələk edərək çox qiymətli bir tədqiqat əsəri yaratmışdır. Əsərin strukturu (**"Erməni məsələsi", "Ermənilər və onların tarixi keçmişi", "Ermənilərin Osmanlı imperiyasında həyatı", "Türk-Rus-Erməni sərhədlərinin müəyyənləşdirilməsi", "Türkiyə Cümhuriyyətinin hədəfə alınması", "Xarici dövlətlərin və missionerlərin rolu", "Rusiyanın rolu", "Britaniyanın rolu", "Fransanın rolu", "Amerikanın rolu", "Kilsə və missionerlərin rolu", "Ermənilərin terror təşkilatları", "Erməni terrorçu qruplarının göbələk kimi çoxalması", "Soyqırımı yalanlarının arxasındakı motivlər", "Türkiyənin şantaj edilməsi", "Türklərə qarşı qətliamların arxasındakı motivlər", "Erməni yalanlarının təbiəti", "Saxtalaşdırma prosesi və iddialar", "Erməni soyqırımı — gerçəklik, yoxsa uydurma?", "Rəqəm oyunu", "Erməni soyqırımı ilə bağlı son söz", "Erməni "üsyanları", "Türklərə qarşı kütləvi qətllər və vəhşiliklər", "Erməni sərsəmliyinin yenidən canlanması", "Azərbaycana qarşı erməni təcavüzü", "Dağlıq Qarabağ münaqişəsi", "Ermənilərin yeni hiyləgərliyi", "Müasir texniki vasitələr və erməni təbliğatı")** və məzmunu erməni xislətinin bütün anatomiyasını açıb ortaya qoyur.

**"Yalanlar, yalanlar, bir daha yalanlar"** kitabının müəllifi görkəmli Pakistan tarixçisi Məsud Əxtar Şeyx zəngin və çoxsaylı ilk mənbələrə əsaslanan sanballı araşdırmasında aşağıdakı elmi nəticələıdakı elmi nəticələrə gəlir: **"Ermənilər tarixdə heç zaman bir millət kimi mövcud olmamışlar. Onlar həmişə Asiyanın geniş çöllükləri boyunca dağınıq halda yaşamış və tanınmış bir xalq sırasına daxil ediləcək heç bir bağ oluşdurmamışlar. Şərqi Anadolu heç bir zaman ermənilərin vətəni olmamışdır. Bu bölgədə onlar sonradan çoxalmağa başlamışlar. Əslində heç bir zaman Ermənistan adlı dövlət olmamışdır. Ermənilər yüzillər boyu müxtəlif imperiyaların hakimiyyəti altında yaşamışlar, lakin heç bir zaman nə osmanlı türkləri, nə də Səlcuqlar onları "yurdlarından" qovmamışlar".**

Alimin təkzibolunmaz sənədlərə əsaslanan bu elmi nəticələri, həm də tarixi həqiqətin özüdür! Bu danılmaz həqiqət isə gec-tez erməni saxtakarlarını bütün dünya xalqlarının gözləri qarşısında rüsvay edəcəkdir.

**Məsud Əxtar Şeyxin "Yalanlar, yalanlar, bir daha yalanlar"** kitabının azərbaycanlı oxucular tərəfindən böyük maraqla qarşılanacağına şübhə etmirəm. Bu qiymətli kitabı dilimizə çevirən Babək Seyfəddinoğluna, əsərin redaktoru, diplomatik fəaliyyəti zamanı tükənməz milli təəssübkeşliklə Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün özünü oda-közə vuran ziyalımız, dərin ehtiram bəslədiyim Eynulla Mədətliyə və kitabın naşiri, «Təhsil» nəşriyyatının baş direktoru Bəhruz Axundova səmimi ziyalı minnətdarlığımı bildirirəm.

**Yaqub Mahmudov**
*Əməkdar elm xadimi*
*Azərbaycan Milli Elmlər*
*Akademiyasının müxbir üzvü*



## REDAKTORDAN

Pakistan ordusunun istefada olan polkovniki, görkəmli türkoloq Məsud Əxtar Şeyxin 2007-ci ildə İslamabadda ingilis dilində nəşr olunan, dərhal ölkə ictimaiyyətinin və diplomatik korpusun diqqətini cəlb edən «Yalanlar, yalanlar, bir daha yalanlar: Türklərə qarşı erməni uydurmaları və iddiaları» kitabı bundan əvvəl dünyada erməni məsələsinə dair yayılmış yüzlərlə kitabdan əhəmiyyətli şəkildə fərqlidir. Tarixi sənədlərə, tərəfsiz qaynaqlara dayanaraq müəllifin gərgin axtarışlarının bəhrəsi kimi ərsəyə gətirilən bu kitabda bir sıra cəsarətli və inandırıcı müddəalar vardır ki, bunları qəbul etməmək mümkün deyildir. Xüsusilə də, erməni məsələsinin ortaya çıxarılaraq inkişaf etdirilməsində Rusiya, Böyük Britaniya, Fransa, Amerika Birləşmiş Ştatları kimi xarici qüvvələrin, xristian missioner təşkilatlarının və kilsənin oynadığı fəal rol təkzibedilməz sənədlər və elmi dəlillərlə sübut edilmişdir. XIX əsrin sonlarından etibarən ermənilərin əsassız ərazi iddialarını və antitürk siyasətini həyata keçirmək üçün yaradılan müxtəlif erməni terrorçu təşkilatlarının zaman-zaman ermənilərin xarici himayədarlarından dəstək aldığı və bir çox hallarda həmin qüvvələrin öz strateji maraqlarının gerçəkləşdirilməsində çirkli bir alətə çevrildikləri elə həmin qüvvələrin öz sənədləri ilə ifşa edilmişdir. Müəllif uydurma «soyqırımı» iddiasının nə üçün ermənilərə lazım olduğunu, ermənilərin, ümumən, türkləri, o cümlədən Azərbaycan türklərini necə soyqırımına məruz qoyduqlarını, Osmanlı dövlətində və Azərbaycanda törətdikləri kütləvi qırğınları ört-basdır etmək məqsədi ilə yalandan özlərini genosid qurbanı kimi qələmə verərək dünya ictimaiyyətinin hüsn-rəğbətini və mərhəmətini qazanmaq üçün necə hiyləgərlik etdiklərini faktlarla açıqlamışdır.

Kitab bu gün Qərbin bir sıra dairələrində, o cümlədən bəzi ölkələrin parlamentlərində, rəsmi və qeyri-rəsmi qurumlarda, guya 1915-ci ildə Osmanlı imperatorluğunda ermənilərin soyqırımına məruz qaldıqlarını tanıyan, onları qurban kimi qələmə verməklə bugünkü Türkiyə Cümhuriyyətinə siyasi-mənəvi təzyiq göstərməyə, nəticədə ermənilər üçün təzminat və imtiyazlar əldə etməyə çalışan qüvvələrə bu yöndə səylərin əsassız və əbəs olduğunu anlamaqda əhəmiyyətli təsir edə bilər. Özlərini dünyada insan haqlarının və ümumiyyətlə, ədalətin təmin edilməsinin himayədarı kimi təqdim edən qüvvələr əsl soyqırımı qurbanlarının məhz Türkiyə və Azərbaycan türkləri olduğunu, onların XIX əsrin axırlarından günümüzədək erməni terroru nəticəsində necə ağır məhrumiyyətlərə və itkilərə məruz qaldıqlarını, bütün bunlara baxmayaraq, təmkin və dözümlülüklə ermənilərə qarşı insanpərvərlik göstərdiklərini, həm bölgədə, həm

də dünyada barış və əməkdaşlığın tərəfdarı olduqlarını dərk etməlidirlər. Bunun üçün kitabdakı dəlil və sübutlara söykənən tarixi faktlarla tanış olmaq yetərlidir.

Kitabda Ermənistan dövlətinin Azərbaycana təcavüzü və Dağlıq Qarabağ məsələsi, erməni terror təşkilatlarının Azərbaycanda törətdikləri qanlı terror aktları, ermənilər tərəfindən amansızlıqla qətlə yetirilmiş yüzlərlə insanın faciəsini əks etdirən Xocalı soyqırımı geniş işıqlandırılmışdır. Müəllif erməni təbliğatının iç üzünü ortaya qoymuş, bunun müqabilində türklərin müvafiq təbliğat işini lazımi qədər aparmadığını da qeyd etmişdir. Düşmənçilik və ədavətin qızışdırılması, davam etdirilməsi yox, əksinə, barışığa və əməkdaşlığa nail olunması üçün etimad yaradılması məqsədi ilə müəllifin ermənilərə və beynəlxalq qüvvələrə verdiyi təkliflər də çox diqqətəlayiqdir. O cümlədən kitabda erməni məsələsinin müfəssəl biblioqrafiyasının da verilməsi təqdirəlayiq hal kimi qiymətləndirilə bilər.

Müəllif erməni terror təşkilatlarının 1890-1994-cü illər arasında, yüz ildən çox bir dövrdə həyata keçirdikləri qanlı aksiyaların xronologiyasını tərtib etmiş, eyni zamanda ermənilərin bu və ya digər şəkildə türklərə qarşı yönəlmiş müharibə və silahlı münaqişələrdə iştirakına dair siyahı təqdim etmişdir.

Müəllif ermənilərin apardığı etnik təmizləmə siyasətini, onların işğal altındakı Azərbaycan torpaqlarında mədəni tarixi abidələri vəhşicəsinə məhv etdiklərini, hətta məscidləri və qəbiristanlıqları viran qoyduqlarını təkzibedilməz faktlar və nümunələrlə təsvir etmiş, 1980-ci illərin axırlarından etibarən Azərbaycan xalqına qarşı yeridilən təcavüzkar siyasətin ənənəvi erməni terrorizminin davamı olduğunu əsaslandırmışdır.

Bu mühüm cəhətləri nəzərə alaraq, kitabın Azərbaycan dilinə tərcümə olunaraq ölkəmizdə nəşr edilməsini məqsədəuyğun hesab etdik. Düşünürük ki, kitab ölkəmizin erməni məsələsi ilə məşğul olan tədqiqatçıları, qurumları, eləcə də geniş oxucu kütləsi üçün faydalı mənbə ola bilər. Bu kitabın erməni iddialarının və təcavüzkarlığının mahiyyətini və ona qarşı durmağın zəruriliyini dərk etmək işinə öz töhfəsini verəcəyinə inanırıq.

Kitabın tərcüməsini öz boynuna götürən və bu işi bacarıqla yerinə yetirən ölkəmizin vətəndaşı, Pakistanın Pəncab Universitetinin magistrı Babək Seyfəddin oğluna və vətənpərvərlik mövqeyi ilə həmişə Azərbaycan diplomatlarına dəstək verən «Təhsil» nəşriyyatının direktoru hörmətli Bəhruz Axundova təşəkkürümüzü yetiririk.

**Dr.Eynulla Mədətli**
*Azərbaycanın Pakistandakı*
*fövqəladə və səlahiyyətli səfiri*





# Erməni məsələsi ilə bağlı niyə daha bir kitab?

Demək olar ki, dünyanın hər bir ölkəsindəki kitab mağazalarında, haradasa bütün XX əsr boyu dünyanın diqqətinin cəmləşib qaldığı erməni məsələsinə aid müxtəlif aspektlərdə yazılan yüzlərlə kitablar mövcuddur. Hətta bu gün də bəzi şəxsi maraqlar boş ümidlə bu ölmüş məsələni yenidən canlandırmağa çalışırlar ki, daha öncələr bu istiqamətdə apardıqları və puç olmuş kampaniyalarında konkret hədəflərinə çatsınlar. Bu kitabların əksəriyyəti ya erməni yazarları, ya da onların qərbdəki tərəfdarları tərəfindən türklərə qarşı açıq-aşkar qərəzlə yazılmışdır. Bəzi istisna hallarda qərb yazarları oxucuların faktların dürüst bir biçimdə təqdimatından özlərinin (müstəqil şəkildə) qərara gələ bilmələrinə şərait yaransın deyə, paralel olaraq türk tarixinə də yer ayırmağa cəhd göstərmişlər. Əksər hallarda isə yazarların konkret məqsədləri, guya heç bir zaman nə bəşəriyyətə, nə də insan haqlarına sayğı göstərməyən, qeyri-insani, vəhşi obrazda təsvir etdikləri türkləri qınamağa yönəlir. Belə zəhərli qələm sahiblərinin çoxunun türkləri pisləmələrinin xüsusi siyasi motivləri var. Bu qələm sahiblərinin arasında əsrlər boyu İslam qayda-qanunlarını yürüdən türklərə qarşı açıq-aşkar dini ədavət və milli-irqi nifrət bəsləyənlər də mövcuddur. Belə nəşrlərin əsas mövzusu ermənilərin Osmanlı imperiyasında milli azlıq kimi yaşadıqları dövrdə türk hökmdarlarının erməni təbəələrinin «genosidinin» geniş vüsət almasına göz yummaları, ermənilərin təşkil olunmuş kütləvi qətlləri və onların əsrlərlə özlərinin vətəni olduğunu (əlbəttə ki, heç bir tutarlı fakt olmadan) iddia etdikləri Anadoludan köçürülmələri ilə nəticələnən zülmə məruz qalmasından bəhs edir.

Buna sübut kimi sənədlərdən götürülmüş uzun-uzadı təkrar materiallara istinadən ermənilərə qarşı həyata keçirilən kütləvi qırğın və əməliyyatların doğruluğunu isbat etmələri tamamilə şübhə altına alındı və sonradan ortaya çıxmış bu elmi və tədqiqat işinin həm Türkiyədən, həm də qərb ölkələrindən olan tədqiqatçı alimlərin öz üzərlərinə götürmələri ilə nəticələndi. İndi isə artıq müəyyən olunub ki, bu sənədlərin əksəriyyəti ya qəsdən saxtalaşdırılmış, ya da qarışdırılmışdır. Bu sənədlər özündə dünyanın rəyini yanlış istiqamətə yönəltmək məqsədi ilə şəxsi maraqlar tərəfindən uydurulmuş məlumatlar və qondarma faktlar ehtiva edir. Məlum erməni dairələri türklərə qarşı nifrət yaratmaq və özlərini isə məzlum xalq kimi qələmə verərək hüsn-rəğbət qazanmaq məqsədi ilə bu sənədləri dünyanın hər yerinə yaymışlar. Erməni yazarlar tərəfindən

yazılan əsərlərin bəzilərində Osmanlı imperiyasının müxtəlif vilayətlərindəki erməni əhalisi ilə bağlı məsələlər həddindən artıq şişirdilmişdir və ermənilərin türk torpaqlarına qarşı iddialarına bəraət qazandırmağa çağıran yazılardır. Bu yazılar yalnız türk yazarları tərəfindən yox, eyni zamanda, öz araşdırmalarını ermənilərin hazırladıqları kimi, təhrif edilmiş, təxmini işlər əsasında deyil, Osmanlı arxivlərindəki sənədlərdə olduğu kimi, rəsmi səlahiyyət sahibləri tərəfindən yönəldilmiş aktual ictimai məsələlər əsasında quran bir çox qərb yazarları tərəfindən də ifşa olunmuşdur.

Ermənilər və onların qərbdəki qərəzli tərəfdarları tərəfindən yazılmış çoxlu kitabların əleyhinə olaraq tarixin türklərə aid səhifəsində Osmanlı hökmdarlarına və türk xalqına qarşı yürüdülən müxtəlif ittihamları təkzib edən kitablar, demək olar ki, yox dərəcəsindədir. Bu, xüsusilə də ingilis dilində yazılan kitablara aiddir. Şübhəsiz ki, bu mövzuda türk dilində yazılmış çoxlu kitablar mövcuddur, lakin bunlar, bir neçəsi istisna olmaqla, mövzuyla bağlı ətraflı məlumat verə bilmir. Bunların əksəriyyəti kiçik broşürlərdən ibarətdir ki, bunların da hər biri erməni məsələsinə yalnız spesifik aspektdən yanaşır. Bu kitablar türk dilində olduğundan bunlardan yalnız türk dilini bilən insanlar faydalana bilir ki, bu da nəşrlərin yayılma əhatəsini xeyli məhdudlaşdırır. İngilis dilində həddən artıq çoxlu sayda mövcud olan erməniyönümlü ədəbiyyatların yanlış istiqamətləndirdiyi dünyanın ingilisdilli əhalisinin məsələylə bağlı düzgün olmayan düşüncəsini dəyişmək üçün bu kitabların bir o qədər də əhəmiyyəti yoxdur. Bu səbəbdən də türk-erməni münasibətlərinin, demək olar ki, bir əsrdən bəri kəskinləşməsinə baxmayaraq, erməni vəkillərinin var gücləri ilə apardıqları uzun-uzadı müharibə təbliğatının yaratdığı genişmiqyaslı qərəz türk maraqlarına zidd fəaliyyətinə davam edir.

Digər vacib məsələ isə 1915-ci ildən başlayaraq 70-ci illərin əvvəllərinədək erməni məsələsini türk nöqteyi-nəzərindən təqdim edən kitabların yox dərəcəsində olmasıdır. Bu kitabların böyük əksəriyyəti 70-ci illərdən sonra kitab köşklərində görünməyə başladı. Beləliklə, bu sahə ermənilər üçün tamamilə başlı-başına buraxıldı və nəticədə onlar dünya xalqlarının beyinlərini bu səpkidə əlli ildən artıq davam edən dəqiq planlaşdırılmış təbliğat maşınıyla birtərəfli və maneəsiz şəkildə zəhərləyə bildilər. Ermənilər türklərdən qisas almaq məqsədi ilə onlar barəsindəki bu susqunluqdan sui-istifadə edərək fövqəladə nailiyyətlər də əldə etdilər. Eyni təsir bir çox qərbli müşahidəçilərin də beyinlərinə yeridilmişdi. Bəs nə üçün türk tərəfi, xüsusilə də ziyalılar və tədqiqatçılar erməni təbliğatının qarşısına keçməkdə uzun zaman başarılı ola bilmədi? Onların bu məğlubiyyətlərinin dörd əsas səbəbi var ki, bunları da belə səciyyələndirmək olar.

Birincisi, demək olar ki, bütün onillik boyu uzanan bir müddətdə, bütün türk xalqı Birinci Dünya müharibəsinin sonuna qədər birləşmiş qüvvələrə qarşı savaşdıqları zaman həm həyatda qalmaq mücadiləsi verir, həm də müharibədən sonra öz ölkələrinin bərpasına çalışırdılar. Müharibə ölkənin idarəçilik sistemini və hərbi infrastrukturunu sıradan çıxarmaqla yanaşı, iqtisadi və işçi qüvvəsi ehtiyatlarına da böyük zərər vurdu. Bu fəlakət az deyilmiş kimi Birinci Dünya müharibəsinin sonlarına yaxın baş verən azadlıq mübarizəsi Böyük Müharibədən salamat qalmış irili-xırdalı nə varsa, hər şeyi dağıtdı. Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Türkiyə Cümhuriyyətinin qurulması dövrü ümumxalq səviyyəsində təcili diqqət tələb edən problemlərlə dolu idi. Bu, bütün Türk xalqını hər bir sahədə milli yenidənqurma və bərpa işlərində bir araya gətirərək birləşdirdi. Belə bir şəraitdə, erməni ittihamlarının əsassız olduğunu tədqiqatlara söykənən genişmiqyaslı nəşrlərlə sübut etmək üçün daha münasib vaxtı gözləmək lazım idi.

İkincisi, Osmanlı imperiyasının qalıqları üzərində qurulmuş Türkiyə Cümhuriyyətinin banisi Atatürk özünün «Yurdda Sülh, Cahanda Sülh» şüarına inam bəsləyir və bütün xalqı da bu prinsipə inamla əməl etməyə çağırırdı. Belə bir siyasət yürütməklə o inanırdı ki, keçmişdə baş verənləri unutmaqla keçmişin iyrənc kölgəsində gizlənən bəd əməllərin əmin-amanlığa və uğurlu gələcəyə daşınmasının qarşısını alacaq. O, qəti inanırdı ki, Lozanna Sazişi keçmişdə baş verənlərin üstünü örtüb və bir daha təkrar açmayacaq. Türk xalqı erməni məsələsinə toxunmadan öz rəhbərinin bu siyasətinə inamla əməl etdiyi halda, erməni siyasətçiləri digər tərəfin bu susqunluğundan tam şəkildə sui-istifadə edərək türkləri beynəlxalq səviyyədə pisləmək üçün şiddətli təbliğat kampaniyalarına davam etməkdə idilər.

Üçüncüsü, ermənilərin Osmanlı imperiyasına qarşı başlatdıqları ittihamlardan bəri Osmanlı imperiyasını əvəz edən Türkiyə Cümhuriyyətinin qurulmasına çalışan türk tarixçiləri, ziyalıları və rəsmiləri artıq mövcud olmayan bir dövləti (Osmanlı imperiyası nəzərdə tutulur) müdafiə etməyi elə də zəruri bilməmişdilər. Əslində belə fərz edirdilər ki, ermənilərin hücumları onlara və dövlətlərinə qarşı yönəlməyib və bu hücumların qarşısını almaq onların vəzifəsi deyil. Bu səbəbdən də türklərin rəsmi və qeyri-rəsmi dairələrindən ermənilərin ittihamlarına heç bir cavab verilmirdi.

Dördüncüsü, ermənilərin Türkiyəyə və türklərə qarşı yürütdükləri ittihamlarını Osmanlının kateqoriyalara ayrılmamış saysız-hesabsız arxivlərində gizlənən həqiqi dəlillər əsasında ifşa etmək lazım idi. Geniş əməliyyat aparmaq isə bu arxivləri kateqoriyalara ayırmağı və milyonlarla qovluqların arasından mövzuyla ilgili sənədlərin ortaya çıxarılmasını təmin etməyi tələb edirdi. Bunun üçün isə mövzu ilə bağlı düzgün təlim keçmiş güclü işçi qüvvəsi və çoxlu miqdarda maddi vəsait lazım idi. Osmanlı imperiyasının çökməsindən sonra hələ uzun illər bu iş üçün lazım olan qədər maddi vəsait əldə edilə bilməmişdi. Lazım olan vəsait əldə edildikdən sonra isə məlum oldu ki, başdan-başa ərəb əlifbasında olan Osmanlı arxivləri çoxdan tərk edilmiş bu əlifbadan başı çıxmayan türk alimlərinin yeni nəsli tərəfindən oxuna bilmir.

Məhz yuxarıda göstərilən səbəblər türk alimlərini 1970-ci illərin ortalarına kimi susmağa məcbur etdi. Daha sonra bir çox maneələr aradan qaldırıldı. Bundan başqa isə, erməni terrorçularının yaratdığı şərait türk tədqiqatçılarını məcbur etdi ki, erməni məsələsi ilə



Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.